

*"Biz iqtisadi potensialımızı insan kapitalına çevirməliyik"*
*İlham ƏLİYEV*

# 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə

# Dövlət Proqramı

http://xaricdetehsil.edu.gov.az

Salam! Hello!

Привет! Guten Tag! Salem!

Labas! Salut! Salam!



BAKI 2011



***Dünyanın inkişaf etmiş ölkələrinin, yüksək səviyyəli universitetlərin, institutların imkanlarından Azərbaycanın gələcəyi, dəyərli kadrlar hazırlanması üçün bundan sonra da səmərəli istifadə etməliyik ...şübhəsiz ki, bu sahədə dövlət proqramı olmalıdır.***

***Ümummilli Lider Heydər Əliyev***

*(1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərinin ümumrespublika toplatısındakı nitqindən, 31 avqust 1998-ci il)*



*... Azərbaycan gəncləri dünyanın aparıcı ali məktəblərində oxumalıdırlar...*
*bunu təşkil etmək üçün xüsusi Sərəncam da imzalanmışdır...*
*bu böyük bir inkişaf prosesinin başlanğıcıdır.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*



# Ön söz

Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra dünyanın bir çox ölkələri ilə təhsil sahəsində də əməkdaşlıq etmək imkanları yarandı. Ötən müddətdə təhsil sahəsində ildən-ilə genişlənən əməkdaşlıq növlərindən biri də əsası ümummilli lider böyük maarifpərvər Heydər Əliyev tərəfindən qoyulmuş tələbə mübadiləsidir.

Xaricdə təhsil müasir beynəlxalq təcrübədə kifayət qədər zəngin ənənələrə malikdir. Sevindirici haldır ki, bu sahə həmişə Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Sovet dövründə Ulu Öndərimiz Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayandan sonra respublikadan kənarda təhsil almaq təcrübəsində sözün əsl mənasında dirçəliş başlandı. Heydər Əliyevin fəaliyyəti sayəsində 1970-80-cı illərdə Azərbaycandan kənarda Vətənimiz üçün 15 mindən çox yüksək ixtisaslı mütəxəssis yetişdirilmişdi. Təkcə bunu demək kifayətdir ki, o zamanlar Azərbaycandan kənarda keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur mülki və hərbi ali məktəblərində elm, təhsil, mədəniyyət və iqtisadiy-

yatımızın 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə azərbaycanlı mütəxəssislərin ali təhsil almaları təmin edilmişdi.

Azərbaycan ikinci dəfə öz müstəqilliyini əldə etdikdən və Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra da bu sahədə mühüm addımlar atılmışdır. Məhz onun xaricdə təhsilə verdiyi önəmin nəticəsi idi ki, xaricdə təhsil alan tələbələrin bütün problemləri dövlətin xüsusi diqqət mərkəzində oldu. Bir neçə il ərzində ardıcıl olaraq xaricdə təhsil alan tələbələrin sosial təminat və maddi-məişət məsələləri ilə bağlı müxtəlif normativ aktlar qəbul olundu.

Azərbaycandan kənarda yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilmiş siyasət bu gün də daha geniş coğrafiyada gənclərimizin dünyanın ən qabaqcıl ali təhsil və elm müəssisələrinə göndərilməsi ilə davam etdirilir. Dövlətin xaricdə təhsilə qayğısının daha bir nümunəsi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təsdiq etdiyi «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»dır. Möhtərəm Prezident bu proqramın icrasına start verməklə Azərbaycan xalqının ilahi sərvəti olan "qara qızılın insan kapitalına çevrilməsi" siyasətini ortaya qoymuşdur.

Bu Proqramı sürətlə inkişaf etməkdə olan Azərbaycanın siyasi, iqtisadi, mədəni sahələrdə beynəlxalq inteqrasiyası, ölkənimizin inkişaf tempinin neft sektorundan asılılığının zəiflədilməsi və yaxud bu asılılıqdan xilası, dünyanı yaxşı tanıyan və özümüzü dünyaya daha yaxşı tanıdacaq yeni nəslin formalaşması, Azərbaycanın dayanıqlı və davamlı inkişafını təmin edəcək yüksək ixtisaslı professionallar ordusunun yaradılması istiqamətlərindəki ehtiyaclarına yetirilən diqqətin təzahürü kimi qiymətləndirmək olar.

Qeyd olunan Proqram çərçivəsində xaricdə təhsilin üstünlüklərindən biri seçilən ixtisasların siyahısı və təhsil proqramları istisnasız olaraq real tələbata uyğun olaraq maraqlı dövlət qurumlarının və digər təşkilatların sifarişləri və rəyləri əsasında formalaşmasıdır. Ali məktəblərin seçimində müvafiq istiqamət üzrə dünyada yüksək reytinqə malik olan aparıcı universitetlər yer alır.

Eyni zamanda onu da qeyd etməliyik ki, tələbələrimiz yüksək səviyyədə təhsil almaqla yanaşı, həm də təhsil aldıqları universitet, şəhər və ölkədə Azərbaycan həqiqətlərinin çatdırılması, təbliği və yayılması işini də aparırlar.

Ümumilikdə, Dövlət Proqramı çərçivəsində 1200 nəfərdən artıq azərbaycanlı gənc xaricdə təhsil almaq hüququ qazanmışdır və Proqramın növbəti illərində də gənclərimizin Azərbaycanın ehtiyac duyduğu priotitet ixtisaslar üzrə dünya reytinqli universitetlərə göndərilməsi davam etdiriləcəkdir.

Ümid edirik ki, bu proqram «qara qızılın insan qızılına çevrilməsi» yolunda atılan ən mühüm və uğurlu addımlardan biri olacaqdır.

Bu şərəfli yolda hər bir Azərbaycan gəncinə uğurlar diləyirik!

*Misir Mərdanov*
*Azərbaycan Respublikasının*
*təhsil naziri*

*Azərbaycan Respublikasının yüksək ixtisaslı kadrlara olan tələbatı və dünyanın aparıcı ali məktəblərində azərbaycanlı gənclərin təhsil almaları üçün şəraitin yaradılması amili bu sahədə Ümummilli Lider Heydər Əliyevin siyasətinin davamı olaraq Dövlət Proqramının yaradılmasının zəruriliyini ortaya qoydu!*



Müasir dövrdə ölkələrin inkişaf səviyyəsi iqtisadi meyarlarla yanaşı, həm də onun təhsil sistemindəki vəziyyəti və mövcud kadr potensialı ilə də ölçülür. Bu da təsadüfi deyil. Çünki hər bir ölkədə gedən bütün mənfi və müsbət proseslər insan amili ilə sıx əlaqədardır. Hərtərəfli və davamlı inkişafın etibarlı yolu elm və təhsilə daha çox diqqət və qayğı göstərilməsindən və onun müasir dünya standartlarına uyğun təşkilindən keçir. Məhz buna görə də qərb və yer kürəsinin digər qabaqcıl dövlətləri özlərinin inkişaf səviyyələrini qoruyub saxlamaq və yeni hədəflərə doğru irəliləmək üçün bu sahəyə birinci dərəcəli əhəmiyyət verirlər.

Azərbaycanda xaricdə təhsil və onun ənənələrinin tarixinə varmadan qeyd edə bilərik ki, son 20 illik müstəqillik dövründə bu sahədə mühüm addımlar atılmışdır. Belə ki, ikitərəfli müqavilələr çərçivəsində Türkiyə, Rusiya, Misir, Çin kimi ölkələrin Azərbaycana ayırdığı təqaüdlər əsasında minlərlə Azərbaycan gənci qeyd olunan ölkələrin nüfuzlu universitetlərində təhsil almış və hazırda onlar ölkəmizin dövlət və özəl sektorunun inkişafına töhfə verir.

Azərbaycandan kənarda yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilmiş siyasət bu gün də daha geniş coğrafiyada gənclərimizin dünyanın ən qabaqcıl ali təhsil və elm müəssisələrinə göndərilməsi ilə davam etdirilir. Möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən

Azərbaycan xalqının ilahi sərvəti olan "qara qızılın insan kapitalına çevrilməsi" siyasəti ortaya qoyulmaqla "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın ıcrasına start verilmişdir. Və bu fərəhli işin həyata keçirilməsi Təhsil Nazirliyinə tapşırılmışdır.

İstər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda əcnəbilərlə aparılan danışıqlar və müzakirələr zamanı hörmətli Prezidentimizin bu Sərəncamının beynəlxalq arenada kifayət qədər böyük rəğbətinin, hörmətinin olduğu və ölkənin yeni imicinin formalaşmasında lazımi dərəcədə tövfə verdiyi məlum olur.



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2090 saylı, 16 aprel 2007-ci il tarixli Sərəncamı ilə**

## "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"

**təsdiq edilmişdir.**

*Dövlət Proqramının icrasına başlanıldığı gündən gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almaları prosesini tənzimləyən qaydaların hazırlanması və müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi həyata keçirilmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti tərəfindən bir neçə Sərəncam imzalanmış, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Qərarlar verilmiş və s. və beləliklə, Dövlət Proqramının dayanıqlı normativ hüquqi bazası formalaşmışdır.*

### Dövlət Proqramı ilə bağlı verilmiş Sərancam və Qərarlar



**19 oktyabr 2006-cı il**

AR Prezidentinin Sərəncamı-Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında

**16 aprel 2007-ci il tarixli, 2090 saylı**

AR Prezidentinin Sərəncamı-2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə

**5 sentyabr 2007-ci il tarixli, 2377 saylı**

AR Prezidentinin Sərəncamı-2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının 2007-2008-ci tədris ilində maliyyələşdirilməsi haqqında

**30 dekabr 2007-ci il tarixli, 222 saylı**

AR Nazirlər Kabinetinin Qərarı-Azərbaycan Respublikası Təhsil Nazirliyinin bəzi məsələləri barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 25 oktyabr tarixli 230 nömrəli qərarında dəyişiklik edilməsi haqqında

**7 aprel 2008-ci il tarixli, 2746 saylı**

AR Nazirlər Kabinetinin Qərarı-Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı əlavə tədbirlər barədə

**3 iyun 2008-ci il tarixli, 128 saylı**

AR Nazirlər Kabinetinin Qərarı-Xarici ölkələrdə təhsil alacaq Azərbaycan gənclərinin seçim qaydaları"nın təsdiq edilməsi haqqında

**3 iyun 2008-ci il tarixli, 204 saylı**

AR Nazirlər Kabinetinin Sərəncamı-"Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı" və "Azərbaycan gənclərinin xaricdə təhsil almaları üzrə prioritet sahə, ixtisas və proqramların siyahısı" təsdiq edilməsi

**27 noyabr 2008-ci il tarixli, 261 saylı**

AR Nazirlər Kabinetinin Qərarı-"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na əsasən Azərbaycan gənclərinin xarici ölkələrin ali məktəblərində təhsil haqlarının ödənilməsi

**12 yanvar 2009-cu il tarixli, 7s saylı**

AR Nazirlər Kabinetinin Sərəncamı-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 3 iyun tarixli 204s nömrəli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı»na əlavələrin edilməsi ilə bağlı

**24 avqust 2009-cu il tarixli, 218 saylı**

AR Nazirlər Kabinetinin Qərarı- Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısına əlavə edilməsi

**15 fevral 2010-cu il tarixli,**

37 saylı AR Nazirlər Kabinetinin Qərarı-Gənclərin xarici ölkələrdə təhsili üzrə aylıq xərc normalarının cədvəlinə əlavələr haqqında

**20 sentyabr 2010-cu il tarixli, 282s saylı**

AR Nazirlər Kabinetinin Sərəncamı - "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı"na əlavələrin edilməsi barədə

**19 oktyabr 2010-cu il tarixli, 180 saylı**

AR Nazirlər Kabinetinin Qərarı- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 noyabr tarixli 261 nömrəli qərarı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na əsasən Azərbaycan gənclərinin xarici ölkələrin ali təhsil müəssisələrində təhsil haqlarının ödənilməsi Qaydaları"na əlavələr edilməsi barədə

**11 oktyabr 2011-ci il tarixli, 306s saylı**

AR Nazirlər Kabinetinin Sərəncamı- "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı"na əlavə və dəyişikliklərin edilməsi barədə

*Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmiş Qərarlara əsasən həmin normativ hüquqi bazaya mütəmadi olaraq əlavə və dəyişikliklər edilir. Belə ki, Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün NK tərəfindən təsdiqlənmiş müvafiq siyahıya yeni ölkə və ali məktəblərin adlarının əlavə edilməsi və ya əvvəlkilərinin çıxarılması, müvafiq ixtisas sahələrində deyişikliklərin edilməsi və s.*

*Ümumilikdə, Dövlət Proqramının icrasına başlandığı gündən bu günədək **1204** nəfər gəncimiz Azərbaycan Respublikasının ehtiyac duyduğu sahələr üzrə müxtəlif təhsil səviyyələrində təhsil almaq məqsədilə dünyanın ən qabaqcıl ali təhsil müəssisələrində təhsil almaq hüququnu qazanmışdır.*

### "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almaq hüququ qazananların sayı




Dövlət Proqramının icrasına 2007/2008-ci tədris ilində 66 nəfər gəncin təhsilinin maliyyələşdirilməsi ilə başlanmışdır. Həmin tədris ilində TQDK tərəfindən seçilmiş gənclərimiz daha çox Rusiya, Fransa və Türkiyə ali məktəblərinin təbabət elmlər, humanitar elmlər, İKT, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə təhsil almaq hüququ əldə etmişdirlər. Göndərilən tələbələrin dəqiq qeydiyyatının aparılması, müvafiq statistik məlumatların əldə edilməsi üçün xarici ölkələrdə təhsil alan tələbələr haqqında məlumat bazası yaradılmışdır. Eyni zamanda Proqramın icrasının şəffaflığını təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən xüsusi sayt (http://xaricdetehsil.edu.gov.az) yaradılmış və Proqramla bağlı bütün elan, məlumat və digər sənədlər bu saytda öz əksini tapmışdır. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planına uyğun olaraq Təhsil Nazirliyi bir sıra xarici tərəfdaş qurumlar ilə əməkdaşlıq haqqında müqavilələr imzalamışdır. Dövlət Proqramı çərçivəsində Azərbaycan gənclərinin dünyanın qabaqcıl ölkələrinin nüfuzlu ali məktəblərinə göndərilməsini təmin etmək məqsədilə imzalanmış ikitərəfli razılaşmalar əsasında Almaniyanın Akademik Mübadilə Xidməti (DAAD) və Fransanın CNOUS təşkilatları ilə də uğurlu əməkdaşlıq həyata keçirilir.

Fransanın CNOUS təşkilatı ilə bağlanmış müqaviləyə əsasən tələbələrimizin bu ölkənin nüfuzlu ali məktəblərində təhsili mümkün olmuşdur.

2007-ci ildə CNOUS təşkilatı ilə əməkdaşlığın qurulması nəticəsində həmin ölkədə təhsil alanların sayı digərləri ilə fərqlənmişdir.

## 2007/2008-ci tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ixtisaslar üzrə statistikası







## 2007/2008-ci tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ölkələr üzrə statistikası

*14 ölkə / 66 nəfər*




## 2007/2008-ci tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların təhsil səviyyələri üzrə statistikası

Dövlət Proqramının ilk ilində təhsilin demək olar ki, bütün səviyyələri üzrə təhsil almaq üçün tələbə göndərilmişdir ki, bunların da əksəriyyəti bakalavr/mütəxəssis səviyyələri üzrə olmuşdur.

## Dövlət Proqramının icrası ilə bağlı beynəlxalq tərəfdaşlarla əməkdaşlıq

**Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi,
Təhsil Nazirliyi və Fransa Dövlət Ali və Orta təhsilinin Təşkili Mərkəzi (CNOUS) arasında Dövlət Proqramı çərçivəsində Fransaya göndərilən tələbələrə ayrılan təqaüdlərin inzibati idarəedilməsi barədə Saziş
Bakı, 2 avqust 2007-ci il**

*Fransanın CNOUS təşkilatı ilə əməkdaşlıqda Dövlət Proqramı çərçivəsində təhsil almağa göndərilənlər*




Dövlət Proqramı çərçivəsində Fransanın CNOUS təşkilatı ilə əməkdaşlıq ilk illərdə uğurla həyata keçirilirdi. Lakin Fransada təhsil qaydalarının digər ölkələrlə müqayisədə daha fərqli və sərt olması, həmin ölkədə təhsil almaq fikrində olan gənclərimizi bu fikirdən yayındırmağa başladı. Nəticədə, 2010/2011 və 2011/2012-ci tədris ilində bu təşkilatın vasitəçiliyi ilə Fransaya tələbə göndərilməmişdir. Ümumilikdə, Fransa ali məktəblərinə göndərilənlərin say dinamikası azalan xətt üzrə hərəkət edir. Azalma həm də, Azərbaycanda fransız dilini müvafiq səviyyədə bilən Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almağa iddialı namizədlərin sayının o qədər də çox olmaması və Fransada dil hazırlığını keçməklə bu ölkənin ali məktəblərində təhsilə başlamaq təcrübəsindən imtina olunması ilə bağlıdır.



**Alman Akademik Mübadilə Xidməti ilə Təhsil Nazirliyi arasında Azərbaycan tələbələrinin Almaniyada təhsili üzrə təqaüd proqramı ilə bağlı Saziş**
**Bakı, 16 iyun 2008-ci il**

**DAAD ilə əməkdaşlıq çərçivəsində təhsil üçün**
- **hər ilin yanvar ayında müvafiq elan verilir;**
- **mart ayında DAAD ekspertləri Bakıya gələrək seçim mərhələsini həyata keçirir;**
- **aprel ayında seçilmiş vətəndaşların adları təsdiq üçün AR Prezidenti yanında Təhsil üzrə Komissiyaya göndərilir;**
- **iyul-avqust aylarında isə həmin təqaüdçülər DAAD tərəfindən müvafiq ali məktəblərə yerləşdirilirlər.**

Dövlət Proqramının daha səmərəli və məqsədyönlü icrasının təmin edilməsi üçün 2008-ci ildən etibarən Almaniyanın Alman Akademik-Mübadilə Proqramı (DAAD) təşkilatı ilə də əməkdaşlığa başlanılmışdır. Bunun nəticəsi olaraq daha ilk ildə 20-dən çox tələbə Almaniyanın ən nüfuzlu ali məktəblərinə göndərilmişdir. Dövlət Proqramının icrasının 2-ci ilində 12 nəfər gəncimiz DAAD ilə əməkdaşlıq çərçivəsində Almaniyada təhsil almaq üçün təhsil yerinə göndərilmiş və cari tədris ilinə qədər bu dinamika artan xətt üzrə inkişaf etmişdir.

DAAD ilə Təhsil Nazirliyinin əməkdaşlığı çox yüksək səviyyədə həyata keçirilir və bu əməkdaşlığın nəticəsi olaraq Dövlət Proqramı çərçivəsində Almaniyanın nüfuzlu ali məktəblərində təhsil alan tələbələrimizin sayı ildən-ilə artır. Təsadufi deyil ki, ötən və cari dərs illərində 50-yə yaxın gəncimiz bu ölkəyə təhsil almaq məqsədilə göndərilmişdir ki, bunların 30-dan artığı Almaniyanın aparıcı tibb təhsil ocaqlarına qəbul olunmuşdur. Bu rəqəm də digər ölkələrlə müqayisədə Azərbaycan kimi ölkə üçün kifayət qədər vacib və əhəmiyyətlidir.



**Almaniyanın DAAD təşkilatı ilə əməkdaşlıqda Dövlət Proqramı çərçivəsində təhsil almağa göndərilənlər**




*Qeyd: 2011/2012-ci tədris ilində Almaniyaya göndərilənlərin 82.5 %- tibb ixtisası üzrə təhsil almağa göndərilmişdir.*

Amerika Birləşmiş Ştatlarında təhsil almaq üçün göndərilən gənclərimizin seçim prosesinin mütəşəkkil qaydada aparılması məqsədilə 2009-cu ildə bu ölkənin müvafiq qurumları ilə Təhsil Nazirliyi arasında əməkdaşliq haqqında Saziş imzalanmışdır. Bu sənədə əsasən hər il bu ölkənin ali məktəblərində magistratura səviyyəsində təhsil almaq üçün bir neçə vətəndaşımız Beynəlxalq Təhsil İnstitutu (İİE) ilə əməkdaşlıq çərçivəsində göndərilir. Son iki il ərzində bu proqramdan 11 nəfər gəncimiz istifadə edib, onlardan dördü məzun olub, dördünün isə bu ilin sonuna qədər məzun olması gözlənilir.



**Dövlət Proqramının icrası ilə bağlı beynəlxalq tərəfdaşlarla əməkdaşlıq**
**Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş**
**Bakı, 19 iyun 2008-ci il**

**Ümumilikdə Beynəlxalq Təhsil İnstitutu ilə əməkdaşlıq çərçivəsində 11 nəfər magistratura səviyyəsində ABŞ-da təhsil almaq üçün göndərilib:**




ABŞ-da BTİ (İİE) ilə əməkdaşlıq çərçivəsində təhsil alan tələbələrimizin əksəriyyəti humanitar və iqtisadiyyat/idarəetmə ixtisasları üzrə təhsil almaq hüququ qazanmışdır. Onu da qeyd edək ki, Dövlət Proqramı çərçivəsində ABŞ-da yalnız bakalavr/mütəxəssis səviyyələrindən sonrakı təhsil səviyyələri üzrə təhsil almaq məqsədəuyğun hesab olunmuşdur.





Dövlət Proqramının icrasının 2-ci ilində 2008/2009-cu tədris ilində artıq xaricdə təhsil almaq hüququ qazananların sayı 2 dəfədən çox artaraq 134 nəfərə çatdırılmış və gənclərimizin səsi artıq düyanın 16 ölkəsinin nüfuzlu universitetlərindən gəlməyə başladı. 2008/2009-cu tədris ilində tələbələrimizin təhsil aldığı ölkələrin siyahısında ilk 3 yeri – Fransa, Böyük Britaniya və Almaniya dövlətləri tuturdu. Fransanın CNOUS təşkilatı ilə aparılan əməkdaşlığın davamı nəticəsində bu ölkəyə göndərilən tələbələrin sayı 27 nəfərə çatdırılmışdır.

**2008/2009-cu tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ölkələr üzrə statistikası**

***16 ölkə / 134 nəfər***




2008/2009-cu tədris ilində də xarici ölkələrə təhsil almaq məqsədilə göndərilənlərin ixtisaslarında ciddi bir dəyişiklik olmamışdır.

**2008/2009-cu tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ixtisaslar üzrə statistikası**




Dövlət Proqramının icrasının 2-ci ilində 1-ci illə müqayisədə artıq magistratura səviyyəsi üzrə təhsilini xaricdə davam etdirmək üçün göndərilənlərin sayında ciddi dəyişikliklər baş vermişdir.

**2008/2009-cu tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların təhsil səviyyələri üzrə statistikası**



2009/2010-cu tədris ilində xaricdə təhsil almaq hüququ qazananların sayı 300 nəfəri ötmüş və onlar artıq dünyanın 20 ölkəsində müstəqil Azərbaycanımızı təbliğ etməyə, əldə edəcəkləri akademik göstəricilərlə universitet rəhbərliyinin və tələbələrin rəğbətini qazanmağa göndərilmişdirlər. 2009/2010-cu tədris ilində tələbələrimizin təhsil aldığı ölkələrin siyahısında ilk 3 yeri –Böyük Britaniya, Türkiyə və Almaniya dövlətləri tutmuşdur. Almaniyanın DAAD təşkilatı ilə aparılan əməkdaşlıq davam etdirilmiş və bunun nəticəsi olaraq 2009/2010-cu ildə də müvafiq statistikada Almaniyada təhsil almaq hüququ qazananların sayı 46 nəfər olmuşdur. Lakin ölkəmizdə iqtisadiyyat və idarəetmə sahəsinə, xüsusilə bu sahədə kadr hazırlığının yüksək səviyyədə həyata keçirildiyi Böyük Britaniya universitetlərinə marağın daha çox olması 2009/2010-cu tədris ilində bu ölkənin ali məktəblərində təhsil almaq hüququ qazananlarını sayını 89-a yüksəldərək ən çox tələbə göndərilən ölkə etdi.

**2009/2010-cu tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ölkələr üzrə statistikası**

***20 ölkə / 308 nəfər***




2009/2010-cu tədris ilində xaricdə Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların çoxu yuxarıda da qeyd etdiyimiz kimi iqtisadiyyat və idarəetmə, sosial və humanitar elmlər, təbabət elmləri və digər istiqamətlər üzrə olmuşdur.

2009/2010-cu tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ixtisaslar üzrə statistikası




Dövlət Proqramının icrasının 3-cü ilində artıq əvvəlki illərlə müqayisədə bakalavr və magistratura səviyyələri üzrə təhsil almaq üçün göndərilənlərin sayı 100-ü keçmiş və rezidentura səviyyəsi üzrə təhsil almaq üçün göndərilənlərin sayında ciddi artım müşahidə olunur.

2009/2010-cu tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların təhsil səviyyələri üzrə statistikası



Dövlət Proqramının icrasının 4-cü ili, 2010/2011-ci tədris ilində xaricdə təhsil almaq hüququ qazananların sayı 275 nəfər olmuş və 2010/2011-ci tədris ilində ən çox tələbə göndərilən dövlətlərdən ilk üç yeri Almaniya, Türkiyə və Böyük Britaniya dövlətləri tutmuşdur. Belə ki, Almaniyanın DAAD təşkilatı ilə aparılan məqsədyönlü və arzuolunan əməkdaşlıq öz bəhrəsini vermiş və Proqram çərçivəsində ən çox tələbənin təhsil almaq hüququ qazandığı ölkə Almaniya olmuşdur.

**2010/2011-ci tədris ilindəDövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ölkələr üzrə statistikası**

*19 ölkə / 275 nəfər*






Ötən tədris ilində, Vaterlo Universitetinin II kurs tələbəsi Abid Orucov iki riyaziyyat dərsindən 100 mümkün baldan 99 nəticə göstərərək bütün universitet rəhbərliyinin heyrətinə səbəb olmuşdur.

## 2010/2011-ci tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ixtisaslar üzrə statistikası




2010/2011-ci tədris ilindən etibarən artıq Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün daha çox tibb, İKT, mühəndislik, fundamental elmlər, kənd təsərrüfatı kimi ixtisaslara üstünlük verilməsinə başlanılmışdır və bunu artıq müvafiq diaqramda da görmək mümkündür.

Qeyd edilməlidir ki, Proqramın icrasına başlanan ilk illərdə namizədlərin təhsil üçün seçdikləri ixtisas sahəsi nəzərə alınmırdı, yetər ki, bu ixtisas Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq siyahıda mövcud olsun. Nəticədə, yuxarıda qeyd etdiyimiz kimi, təhsil almağa göndərilənlərin çoxunun iqtisadiyyat, humanitar və sosial ixtisas istiqamətlərinə üstünlük verdikləri müəyyən edilirdi. Lakin, 2010-cu ildən etibarən xaricdə təhsil üçün bir sıra prioritet ixtisaslar müəyyən edildikdən sonra, namizədlərin mühəndislik, tibb, İKT kimi ixtisas sahələrinə maraqlarının artdığı müşahidə olunur.

## 2010/2011-ci tədris ilindəDövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların təhsil səviyyələri üzrə statistikası

Eyni zamanda təhsil səviyyələrinə diqqət yetirsək görərik ki, ötən illərlə müqayisədə artıq magistratura üzrə təhsil almaq hüququ qazananların sayı daha çox artmışdır. Məsələn, tibb ixtisasları üzrə təhsilə üstünlük verilməsi artıq rezidentura səviyyəsində təhsil alanların sayına da öz təsirini göstərmişdir.



Nəhayət, 2011/2012-ci tədris ili-Dövlət Proqramının icrasının “5-ci” ilində ötən illərdən fərqli olaraq Proqramın icrasında məzmun və forma baxımından müəyyən mütərəqqi dəyişikliklər baş vermişdir:

1. Qabaqcadan ictimaiyyətə çatdırılan prioritetlər haqqında məlumatlar;
2. Sənəd qəbulu üçün kifayət qədər vaxtın - 06.06.2011-20.08.2011 ayrılması;
3. Elektron ərizə formasının tətbiqi.

**Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın tövsiyəsi əsasında respublikanın kadrlara olan tələbatı nəzərə alınaraq 2010/2011-ci tədris ilindən etibarən Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil üçün aşağıdakı ixtisaslar prioritet olaraq elan olunmuşdur:**




- informasiya texnologiyaları,
- mühəndislik,
- neft sənayesi,
- tibb,
- riyaziyyat,
- fizika,
- biologiya
- kimya,
- ekologiya,
- kənd təsərrüfatı ,
- mühasibat uçotu.

Qeyd olunan prioritet istiqamətlər barədə ötən ilin payızında nazirliyin veb səhifələrində müvafiq məlumatlar yerləşdirilərək ictimaiyyətin diqqətinə çatdırılmışdır.







## @ - Elektron ərizə

Digər bir yenilik isə Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün ərizələrin elektron formada qəbulu ilə bağlı olmuşdur.

“Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 23.05.2011-ci il tarixli, 429 saylı Fərmanı” bu işin surətləndirilməsinə və layihənin həyata keçirilməsinə olan inamı daha da artırdı. Dövlət Proqramına ərizələrin elektron şəkildə qəbulunun həyata keçirilməsi də məhz bu istiqamətdə atılan mühüm bir addım oldu.

Beləliklə, artıq bu il Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün sənədlərin “elektron ərizə” formatında qəbulunun həyata keçirilməsinə başlanılmışdır. Bu məqsədlə hərtərəfli və spesifik elektron ərizə forması hazırlanmış, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi ilə birgə əməkdaşlıq nəticəsində məlumatların yerləşdirilməsi üçün xüsusi baza yaradılmışdır. Beynəlxalq təcrübədən istifadə edilərək hazırlanan bu “ELEKTRON ƏRİZƏ”nin digər elektron ərizələrdən üstün cəhəti məhz ondadır ki, bu sistemdə ərizəçilər sənədləri nazirliyə təqdim etmək məqsədilə onlara münasib olan tarix və vaxtı özləri seçirlər, doldurulan elektron ərizənin bir nüsxəsi isə onların ərizədə göstərdiyi elektron poçt ünvanına göndərilir.



Cinsinə görə | Malik olduğu Təhsil səviyyəsinə görə | İddia olunan Ölkəyə görə | İxtisasa görə | Ərizənin təsdiqinə görə | Hərbi mükəlləfiyyərinə görə
İddia olunan kursa görə | İddia olunan təhsil səviyyəsinə görə | Filter

**Filter nəticəsində 426 müraciət tapıldı**

| Şəxsi № | Qəbul vaxtı | Namizədin soyadı, adı və atasının adı | Cinsi | Təvəllüdü | Qəbul olunduğu xarici ölkə | Qəbul olunduğu ali məktəb | Qəbul olunduğu ixtisas | Qəbul olunduğu təhsil səviyyəsi | Malik olduğu təhsil səviyyəsi | TQDK balı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 06201167 | 2011-06-06 / 15:00 - 15:15 | Həsənli Məmməd Rəhim Şahin | kişi | 4 Mart 1993 | Kanada | University of Toronto | mühasibat uçotu | Bakalavr/Mütəxəssis | orta | 685 |
| 06201180 | 2011-06-07 / 10:00 - 10:15 | Hüseynquliyev Kənan Mübariz | kişi | 26 Dekabr 1988 | Kanada | University of Toronto | mühasibat uçotu | Magistratura | bakalavr/mütəxəssis | |
| 06201160 | 2011-06-07 / 11:00 - 11:15 | Məmmədov Murad Nazim | kişi | 1 Yanvar 1976 | Avstriya | Medical University of Vienna | tibb | Bakalavr/Mütəxəssis | orta | |
| 06201159 | 2011-06-07 / 11:45 - 12:00 | Süleymanov Tərlan Nizami | kişi | 1 Avqust 1993 | Böyük Britaniya | The University Of Sheffield | informasiya texnologiyaları | Bakalavr və Magistr | orta | 690 |
| 06201189 | 2011-06-07 / 15:00 - 15:15 | Adıgözəlov Niyaz Seymur | kişi | 13 Dekabr 1987 | | | informasiya texnologiyaları | Magistratura | bakalavr/mütəxəssis | Bakalavr - 614, Magistratura - 117. |
| 06201132 | 2011-06-07 / 15:30 - 15:45 | Yusifli Əlizamin Nizami | kişi | 12 May 1992 | Türkiyə | İstanbul Universiteti Cerrahpaşa Tibb fakültəsi | tibb | Bakalavr/Mütəxəssis | orta | 4-cü ixtisas qru[illegible] üzrə 690 bal |
| 06201124 | 2011-06-07 / 15:45 - | Kərimli Lalə | qadın | 12 Mart | Rusiya | Московская Медицинская Академия им. И.М.Сеченова (Первый | tibb | Phd/Aspirantura | ordinatura | 560 |

## 2011/2012-ci tədris ili üçün elektron ərızə qəbulu barədə statistik göstəricilər
## Ərizələri nazirlikdə təsdiqlətmişlərin ixtisaslar üzrə bölgüsü







Cari tədris ilində elektron ərizə ilə müraciət edənlərin sayı 715 nəfər, ərizələrini nazirlikdə təsdiq etdirənlərin sayı isə 506 nəfər olmuşdur. Ərizəçilərin müəyyən hissəsi həqiqi hərbi xidmətdən möhlət hüququ olmadıqları və qəbul olunduqları ixtisasların proqramın prioritetlərinə uyğunsuzluğu səbəbi ilə onların ərizələrinin qeydiyyatı nazirlikdə təsdiq olunmamışdır.

Eyni zamanda onu da qeyd etmək olar ki, Dövlət Proqramına sənəd qəbulu konkret ixtisaslar üzrə həyata keçirilməsəydi, xaricdə təhsil üçün müraciət edənlərin sayı 1500-dən artıq olardı. Bu da onu göstərir ki, ölkədə xarici ali məktəblərin qəbul şərtlərinə və standartlarına cavab verən kifayət qədər abituriyent və tələbə var. Bu meyar isə ölkədə təhsil sahəsində aparılan islahatların, ölkədəki təhsilin səviyyəsindəki irəliləyişlərin və s. faktorların bariz nümunəsidir və Azərbaycan təhsilinə qara yaxanlara tutarlı cavabdır.

Nümunə olaraq ərizələrini təsdiqlətmişlərin istiqamətlər üzrə statistikasına diqqət yetirmək olar. Ərizələrini təsdiqlədənlər arasında ən çox müraciət olunan ixtisas istiqaməti tibb, mühasibat uçotu, mühəndislik, İKT, ən az müraciət olunan istiqamətlər isə texniki elmlər, kənd təsərrüfatı, ekologiyadır.

Dövlət Proqramının 5-ci ilində xaricdə təhsil almaq hüququ qazanların sayı proqramın icra tarixində ilk dəfə olaraq 400 nəfərdən artıq olmuş və 20 illik müsqəqilliyini qeyd edən Azərbaycan Respublikasının daha sürətli və dinamik inkişafına töhfə vermək məqsədilə ehtiyac duyulan ixtisaslar üzrə kadr hazırlığı siyasəti davam etdirilmişdir.

Cari tədris ilində təhsil almaq üçün göndərilən tələbələrin ölkələr üzrə siyahısındakı ilk 3 yeri – qardaş Türkiyə, Böyük Britaniya və Almaniya tutmuşdur.

**2011/2012-ci tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ölkələr üzrə statistikası**

*18 ölkə / 421 nəfər*




***Qeyd: 2011/2012-ci tədris ilində Türkiyəyə göndərilənlərin 77.6 %-tibb ixtisası üzrə təhsil almağa göndərilmişdir.***

Eyni zamanda siyahıya diqqət yetirsək, Dövlət Proqramının icrasına başladığımız illərdə siyahıda ön sıralarda yer alan ölkələr artıq öz yerlərini dəyişmişdir. Misal üçün Fransaya cari ildə yalnız 7 tələbə göndərilmişdir ki, bu da həmin ölkədə tədris dilinin yalnız fransız dilində olması, həm də təlim-tədris prosesin kifayət qədər mürəkkəb olması ilə izah edilə bilər. Ötən illərdən fərqli olaraq, bu il Proqram çərçivəsində Türkiyədə təhsil almaq üçün göndərilənlərin sayı da artıq 100-ü keçmişdir.

**2011/2012-ci tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların ixtisas sahələri üzrə statistikası**




Təhsil üzrə Komissiyanın məlum tövsiyəsi öz nəticəsini vermiş və cari tədris ili üçün göndərilənlər sırf tələbata uyğundur. Lakin, təəssüflə qeyd etməliyik ki, fundamental, təbiət elmləri (riyaziyyat, fizika, kimya, biologiya) və kənd təsərrüfatı sahələri prioritet ixtisasların siyahısına daxil edilməsinə baxmayaraq, bu ixtisaslar üzrə xaricdə təhsil almağa getmək istəyənlərin sayı qane edici deyildir.

Bu ilk növbədə respublika ali məktəblərinə qeyd etdiyimiz ixtisaslara qəbul olunanların xarici dil biliklərinin tələb edilən səviyyədə olmamasıdır. Digər tərəfdən kənd təsərrüfatı, ekologiya və bəzi texniki ixtisas sahələri üzrə Azərbaycan ali məktəblərinə keçirilən qəbul imtahanlarında abituriyentlərin 550 baldan aşağı nəticə göstərmələri onların Dövlət Proqramının müsabiqələrində iştirak etmələrini mümkünsüz edir.

“Professional karyeramın bu mərhələsində təhsilimi davam etdirməyimə əsas təkan “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının” möhtərəm Prezidentimiz, cənab İlham Əliyev tərəfindən imzalanaraq Azərbaycan gənclərinə təqdim olunması oldu. Heç kimə sirr deyil ki, Harvard Universiteti kimi qabaqcıl təhsil müəssisələrində təhsil adi Azərbaycan vətəndaşı üçün olduqca imkansızdır. Möhtərəm Prezidentimizin bu Proqramı biz gənclərə bəxş etməsi Azərbaycanın gələcəyinə qoyulmuş uzaqgörən və strateji bir sərmayədir. Biz əlimizdən gələni etməliyik ki, bu etimadı layiqincə doğruldaq.„

*Hüseynov Emin*
*ABŞ, Harvard Universitetinin məzunu*





**2011/2012-ci tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazananların təhsil səviyyələri üzrə statistikası**




Bu il bakalavr mütəxəssis səviyyələri üzrə təhsil almaq hüququ qazananların sayı ötən illə müqayisədə magistraturada təhsil alanların sayını üstələmişdir. Tibb ixtisasının prioritet ixtisaslar siyahısında ön sıralarda yer tutması rezidentura səviyyəsində təhsil almaq üçün göndərilənlərin sayını 35-dən 100-ə yaxınlaşdırmışır.



2007/2008-2011/2012-ci tədris illəri ərzində gənclərimiz Dövlət Proqramı çərçivəsində dünyanın 24 ölkəsinin (Türkiyə, Almaniya, ABŞ, Böyük Britaniya, Belçika, Fransa, Rusiya Federasiyası, İsveç Krallığı, İsveçrə, İrlandiya, İspaniya, İtaliya, Çexiya, Niderland Krallığı, Kanada, Koreya Respublikası, Avstriya, Çin Xalq Respublikası, Avstraliya) 200-dək nüfuzlu ali məktəblərində təhsil almaq üçün göndərilmişdir:

**Dövlət Proqramı çərçivəsində gənclərimizin təhsil aldığı ilk sıralarda yer almış ölkələrin 5 illik say dinamikası**




Dövlət Proqramı çərçivəsində tələbələrimizin təhsil almaq üçün ən çox göndərildiyi ölkələrin 5 illik dinamikasına nəzər yetirsək görərik ki, 2007-ci ildə ən çox tələbə Rusiya, 2011-ci ildə isə Türkiyəyə göndərilmişdir. Almaniya, Kanada, Rusiya və Türkiyədə təhsil almaq hüququ qazanan tələbələrimizin say dinamikası yüksələn xətt üzrə inkişaf edir, Fransa və Niderlandda say dinamikası azalır.



"Nüfuzlu musiqi mərkəzində təhsilimə verdiyi dəstəyə görə Azərbaycan dövlətinə, Təhsil Nazirliyinə dərin təşəkkürümü bildirirəm. Bunu Azərbaycan incəsənətinin, musiqisinin inkişafına xidmət etmək, ölkəmizi dünyanın musiqi auditoriyalarında təmsil etmək yolunda gözəl bir imkan kimi dəyərləndirirəm".

*Türkər QASIMZADƏ*

*ABŞ, Manhetten Musiqi Məktəbinin məzunu*

5 illik dinamika ilə bağlı rəqəmlər onu göstəririr ki, 2011-ci ilin əsas prioritet ixtisasalarından olan turizm ixtisası üzrə Proqramın ilk ilində tələbə göndərilməmişdir. 2011-ci ildə ən çox tələbə həm tibb ixtisası üzrə, həm də ümumilikdə Türkiyəyə göndərilmişdir. Almaniya, Kanada, Rusiya və Türkiyədə təhsil almaq hüququ qazanan tələbələrimizin say dinamikası yüksələn xətt üzrə inkişaf edir, Fransa və Niderlandın say dinamikasında durğunluq müşahidə olunur.

**Dövlət Proqramı çərçivəsində təhsil alanların ixtisas istiqamətləri üzrə 5 illik dinamikası**




Son 5 il ərzində Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almağa göndərilənlərin ixtisaslar üzrə bölgüsündə müşahidə edilir ki, tibb ixtisasları Proqram üçün həmişə prioritet olmuşdur və bu gün də ən çox tələbənin təhsil aldığı istiqamətdir. Bu da son illər ölkə miqyasında aparılan geniş abadlıq və quruculuq işlərin nəticəsində ölkəmizin paytaxtında və eləcə də regionlarda istifadəyə verilən ən son texnogiyalar və avadanlıqlarla təchiz olunmuş müalicə-diaqnotistika mərkəzlərinin və s. yüksək ixtisaslı kadrlarla təmin olunması məqsədi güdür. Eyni zamanda mühəndislik, İKT kimi əhəmiyyətli ixtisaslar üzrə gənclərimizin xaricdə təhsilə marağı artıb dinamika yüksələn xətt üzrə inkişaf edir.

Qeyd olunan ixtisaslarla yanaşı, prioritet ixtisaslar sırasında daxil edilməsə də, xüsusi olaraq mədəniyyət və incəsənət ixtisasları üzrə də kadr hazırlığı həyata keçirilir. Ölkəmizdə mədəniyyət və incəsənətə ölkə rəhbərliyi tərəfindən yüksək səviyyədə göstərilən diqqət və qayğı Dövlət Proqramının həyata keçirilməsində məhz həmin ixtisaslar üzrə də gənclərin xarici ali məktəblərə göndərilməsi ilə öz əksini tapır. Belə ki, Proqramın icrasına başlandığı gündən bu günədək hər il həmin ixtisaslar üzrə tələbələr təhsil almaq üçün xaricə göndərilmişdir.

Dövlət Proqramının tədbirlər planına əsasən mütəmadi olaraq dövlət qurumları, Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndiklər, eləcə də Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamları ilə "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı"na təklif olunan ali məktəblərin adlarının daxil edilməsi ilə bağlı müraciətlər daxil olur. Təhsil Nazirliyi təklif olunan ali məktəblərin reytinqi, tədris olunan təhsilin səviyyəsi və keyfiyyəti, konkret ixtisaslar üzrə ixtisaslaşmanın keyfiyyəti və s. göstəricilər əsasında mütəmadi olaraq araşdırma aparır və məqbul hesab etdiyi təkliflər barədə Nazirlər Kabinetinə müraciətlər edir.

### "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı"nda əlavə və dəyişikliklər

**Siyahıdan çıxarılanlar:**

11.10.11-ci tarixli 306 saylı Sərəncamla

Böyük Britaniyanın *London Metropolitan Universiteti, Bellerbis Kolleci, Vestminster Universiteti*

**Siyahıya əlavə edilənlər:**

22.06.2010-cu il 176s saylı Sərəncamla

Fransanın *Teyls Universiteti, Milli Aviasiya Məktəbi*

ABŞ-ın *Menhetten Musiqi Məktəbi*

20.09.2010-cu il 282s saylı Sərəncamla

Hollandiyanın *Tətbiqi Elmlər İnstitutu*

Rusiyanın *Moskva Dövlət Linqvistika Universiteti*

**Sərəncamı gözlənilir**

ABŞ-ın *İllinois Universiteti,*

Almaniyanın *Vaynştefan-Triesdorf Ali Məktəbi*

Niderland Krallığının *YUNESKO - Su Təhsili İnstitutu*

Yaponiyanın *Doşişi Universiteti, Ritsumeikan Universiteti, Meici Universiteti*

Malayziyanın *Malayziya Milli Universiteti*

Belarus *Belarus Milli Texniki Universiteti, Belarus Dövlət İnformatika və Radioelektronika Universiteti*

Latviya *Latviya Universiteti, Riqa Texnologiya Universiteti, Latviya Kənd Təsərrüfatı Universiteti*

Litva *Vilnus Universiteti Kaunas Texnologiya Universiteti*

Estoniya *Tartu Universiteti, Tallin Texnologiya Universiteti*

Cari tədris ilində dünyanın aparıcı ali məktəblərində müxtəlif təhsil səviyyələrində ölkəmizin ehtiyac duyduğu prioritet ixtisas sahələri üzrə təhsil alan tələbələrimizin sayı 853-dür.

**2011/2012-ci tədris ilində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil alan tələbələrə dair ölkələr üzrə statistik MƏLUMAT**




*Hazırda 23 ölkənin 200-dək universitetində 853 nəfər təhsil almaqdadır.*


100-200 tələbə
50-100 tələbə
10-50 tələbə
1-10 tələbə
United States
Canada
United States
Mexico
The Bahamas
Dominican Republic
Cuba
Belize
Jamaica
Haiti
Puerto Rico
Guatemala
Honduras
El Salvador
Nicaragua
Costa Rica
Panama
Venezuela
Colombia
Guyana
Suriname
French Guiana
Barbados
Trinidad and Tobago
Brazil
Bolivia
Paraguay
Uruguay
Argentina
1. Saint Vincent and the Grenadines
2. Saint Lucia
3. Saint Kitts and Nevis
4. Antigua and Barbuda
5. Dominica
6. Grenada
Iceland
United Kingdom
Ireland
France
Portugal
Spain
Morocco
Algeria
Western Sahara
Mauritania
Senegal
Cape Verde
Gambia
Mali
Burkina Faso
Guinea-Bissau
Guinea
Ghana
Sierra Leone
Liberia
Togo
Côte d'Ivoire
11. Democratic Republic of the Cong
12. Equatorial Guinea
13. São Tomé and Príncipe
14. Benin
United Kingdom
Ireland
Denmark
Netherlands
Belgium
Germany
Luxembourg
Liechtenstein
France
Switzerland
Monaco
Andorra
San Marino
Vatican City
Spain
Portugal







## Dövlət Proqramı çərçivəsində hazırda təhsil alanların əhatə coğrafiyası

Yuxarıda verilmiş xəritə Dövlət Proqramı çərçivəsində xaricdə təhsilin hazırki mümkün əhatə coğrafiyasını göstərir. Belə ki, Azərbaycan dövlətinin hesabına müstəqil Azərbaycan gənci dünyanın təqribən 60%-ni əhatə edən bir coğrafiyada təhsil almaq fürsətinə malikdir. Ərazi baxımından kiçik bir dövlət olan Azərbaycanın dünyanın nüfuzlu ali məktəblərində təhsil almaq üçün Azərbaycan gəncinə verdiyi bu fürsət ölkədə həyata keçirilən məqsədyönlü və uğurlu siyasətin bəhrələrindədir. Hazırda Avropa qitəsinin 3 aparıcı ölkəsində gənclərimizin sayı 100 nəfərdən artıqdır.

**2011/2012-ci tədris ilindəDövlət Proqramı çərçivəsində təhsil alanların ixtisas sahələri üzrə statistikası**




Hazırda gənclərimizin böyük əksəriyyəti xarici ali məktəblərdə tibb, iqtisadiyyat və idarəetmə ixtisas istiqamətləri üzrə təhsil alanlardır. Onu da qeyd etmək lazımdır ki, 2010/2011-ci tədris ilindən etibarən mühəndislik, İKT, neft sənayesi və digər bu kimi istiqamətlərin prioritet elan olunduqdan sonra bu ixtisaslar üzrə təhsil alanların sayı artmışdır. Eyni zamanda respublikamız üçün ehtiyac duyulan riyaziyyat, fizika, kimya, biologiya, kənd təsərrüfatı və ekologiya sahələri üzrə xaricdə təhsil almağa getmək istəyənlərin sayı arzuolunan səviyyədə deyildir. Problemin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu qəbildən görülən işlərə nümunə olaraq Dövlət Proqramı çərçivəsində xaricdə təhsillə bağlı reallaşdırılmış xüsusi layihələri misal göstərmək olar.

## "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçəsində XÜSUSİ LAYİHƏLƏR:

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşəbbüsü ilə BDU və BSU-nun tələbələrinin və gənc jurnalist kadrların Rusiyanın Moskva Dövlət Universitetində və Moskva Dövlət Linqivistika Universitetində hazırlanması;**

2009/2010-cu ildə BDU və BSU-nun tələbələri pilot layihə olaraq jurnalistika ixtisası üzrə təhsil almaq məqsədilə Moskva Dövlət Universitetinə göndərilmiş, daha sonra öz ali məktəblərinə qayıdaraq təhsillərini davam etdirmişdirlər. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sifarişi əsasında 2010-cu ildən etibarən Moskva Dövlət Linqvistika Universitetində Rusiyanın "Ria-Novosti" informasiya agentliyi ilə birgə "Müasir jurnalistika. Ustalığın əsasları" proqramı üzrə Dövlət Proqramı çərçivəsində 2 illik tədris başlamışdır. Proqramın əsas məqsədi respublikamızın kütləvi informasiya vasitələrində çalışmaq üçün peşəkar mütəxəssislərin hazırlanmasıdır.

2010-cu ildə 6 nəfər, cari ildə isə 8 nəfər Azərbaycanın müxtəlif kütləvi informasiya vasitələrində çalışan jurnalist MDLU-ya göndərilmişdir.

**Bakı Dövlət Universiteti ilə Moskva Fizika-Texniki İnstitutu arasındakı əməkdaşlıq çərçivəsində texniki elmlər üzrə BDU-nun tələbələrinin MFTİ-da təhsillərini davam etdirmək üçün göndərilməsi;**

Digər bir layihə çərçivəsində, Bakı Dövlət Universitetinin Moskva Fizika Texniki Universiteti ilə imzaladığı Memoranduma əsasən dünyada məşhur olan bu təhsil ocağında hər il 2 nəfər bakalavr, 1 nəfər də magistratura səviyyəsində təhsillərini davam etdirmək üçün göndərilir.

**I layihə çərçivəsində**

Moskva Dövlət Universiteti və Moskva Dövlət Linqivistika Universitetində 18 nəfərin jurnalistika təhsili maliyyələşdirilib:




**II layihə çərçivəsində**

Moskva Fizika-Texniki İnstitutunda 4 nəfərin təhsili maliyyələşdirilib:



**Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün daha çox gənclərimizin göndərilməsi arzu edilən ölkələr:**

- **Yaponiya**
- **Malayziya**
- **Çin**
- **Sinqapur**
- **Koreya Respublikası**
- **Avstraliya**




Eyni zamanda onu da qeyd etmək olar ki, Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alanlar və arzusunda olmaq istəyənlər daha çox Avropa ali məktəblərində təhsil alır və almaq istəyirlər. Əfsuslar olsun ki, dünya iqtisadiyyatında özünəməxsusu yeri olan, iqtisadi inkişaf dinamikasına görə öndə gedən, dünya bazarlarına çıxardıqları məhsullara və digər meyarlara sahib cənub-şərqi asiya ölkələrində təhsil almaq istəyənlər sayı arzu olunan səviyyədə deyil. Bu istiqamətdə ali məktəblərimizin həmin ölkələrin ali məktəbləri ilə xüsusi layihələr həyata keçiməsi, əməkdaşlıq əlaqələrini genişləndirməsi yolları həmin coğrafiyaya tələbələrin axınını da yönəltmək olar.

Dövlət Proqramının digər mühüm məqsədlərindən biri də xaricdə Azərbaycanın layiqincə təbliğ və təmsil olunmasıdır. Belə ki, bu məsələ Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq hüququ qazanan şəxs və Təhsil Nazirliyi arasında imzalanan müqavilədə də öz əksini tapır. Bu maddə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən xüsusi Sərəncamla əlavə edilmişdir:

"Xaricdə təhsilləri dövlət tərəfindən maliyyələşən bütün tələbələr təhsil aldıqları ölkələrdəki Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və Azərbaycan diasporunun təşkil etdikləri Azərbaycanın dövlət maraqlarının müdafiəsi ilə bağlı və digər ictimai-mədəni tədbirlərdə iştirak etməlidirlər".

Dünyanın müxtəlif ölkələrində təhsil alan azərbaycanlı gənclər yaşadıqları cəmiyyətə uğurla inteqrasiya olunurlar. Dünyanın nüfuzlu universitetlərində təhsil alan azərbaycanlı gənclərin Avropa, Amerika və digər ölkələrdə fəaliyyətləri onların həm də fərqli cəmiyyətlərdə Azərbaycanı təmsil etmələri deməkdir. Çünki hər bir əcnəbi Azərbaycanı onların simasında tanıyır, bu ölkənin mədəniyyəti, milli dəyərləri haqqında fikirləri də məhz soydaşlarımızın fəaliyyəti əsasında formalaşır. Odur ki, xarici ölkələrə mütəmadi səfərlər edən və ölkəmizdən kənarda yaşayan gənclərimizin üzərinə bir sıra vəzifələr düşür.

Bu vəzifələr təkcə mənsub olduğun xalqın tarixi keçmişini, adət-ənənələrini, mədəniyyətini bilmək və onu tanıtmaqla bitmir. Bu sıraya azərbaycanlı gənclərin təşkilatlanması, yaşadıqları cəmiyyətə fəal şəkildə inteqrasiyası, müxtəlif qurumlarda təmsili, lobbiçilik və diaspor sahəsində fəallıq göstərməsi, lazımi anda ölkə və xalqın maraqları baxımından həmrəylik nümayiş etdirmələri, ölkəmizlə sıx əlaqələrin saxlanılması və sair daxildir.

Bu məqsədlə tələbələrimiz təhsil aldıqları ölkə, şəhər və ali məktəblərdə təşkilatlar, ictimai birliklər yaratmışdırlar. Böyük Britaniyada, Fransada, ABŞ-da, Almaniyada, Niderlandda, Çexiyada, İsveçrədə, İsveçdə, Cənubi Koreyada, Avstraliyada və Rusiyada, Ukraynada və digər ölkələrdə gənclərimiz yaradılan təşkilatlarda sıx birləşmiş, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırırlar. Bu istiqamətdə görülən işlərə nümunə olaraq Heydər Əliyev Fondunun Rusiya nümüyəndiliyinin rəhbəri Leyla xanım Əliyevanın başçılıq etdiyi Rusiya Azərbaycanlı Gənclər





Təşkilatı (AMOR) ətrafında cəmləşən tələbələrimiz Azərbaycanın intellektual potensialını təbliğ edir, Azərbaycan həqiqətlərini müxtəlif kompaniyalar (Xocalıya Ədalət) vasitəsilə dünya ictimaiyyətinin diqqətinə çatdırırlar. Azərbaycan diasporunun mədəni həyatının inkişafında keyfiyyətcə yeni mərhələ hesab edilən və bir sıra əhəmiyyətli layihələr ilə seçilən RAGT Leyla Əliyevanın rəhbərliyi ilə Rusiyada yaşayan və təhsil alan gənclərin təşkilatlanmasında, onların Azərbaycan mədəniyyətinin, irsinin və ölkə həqiqətlərinin Rusiya ictimaiyyətinə çatdırılmasında mühüm addımlar atmaqdadır.











BUTA

AZƏRBAYCAN-KOREYA TƏLƏBƏ TƏŞKİLATI

Azərbaycan gənclərinə Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq fürsəti yaradıldıqdan sonra Cənubi Koreyada da təhsil alanların sayı artmışdır. Azərbaycanlı tələbələrin təşkilatlanması məqsədilə Koreyadakı Azərbaycanlılar üçün əlamətdar gün, 21 mart 2009-cu ildə təsis konfransı keçirildi və Koreya Respublikasında təhsil alan azərbaycanlı tələbələrin təşkilatlanması, soydaşlarımız arasında milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, Azərbaycan xalqının tarixi, müasir həyatı, sosial-iqtisadi inkişaf səviyyəsi, mədəniyyəti ilə bağlı məlumatların Koreya ictimaiyyətinə çatdırılmasını qarşısına məqsəd qoyan Azərbaycan-Koreya Tələbə Təşkilatının əsası qoyuldu. Təşkilata rəmzi olaraq Azərbaycan xalqının milli xüsusiyyətlərini özündə əks etdirən “BUTA” adı verildi.





Dövlət Proqramı"nın icrası ilə bağlı xaricdə təhsil alanların təhsilləri üçün illər üzrə DNF tərəfindən aşağıdakı məbləğdə vəsait ödənilmişdir:

*12.12.2011*




| | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|
| Ayrılmış büdcə | 2200000 | 5000000 | 10000000 | 10000000 | 15000000 |
| Xərclər | 810816 | 2295577 | 7912084 | 9605340 | 13432850 |



Dövlət Proqramının icrasına başlandığı tarixdən bu günədək ayrılmış vəsaitlər proqnozlara uyğun şəkildə gənclərimizin təhsilinin maliyyələşdirilməsi üçün xərclənmişdir və cari ildə xərclərin ödənilməsi üçün büdcədə nəzərdə tutulmuş 15 milyon vəsaitlə bağlı verilmiş proqnoz da özünü doğrultmaqdadır. Növbəti ildə DNF-nin büdcəsində xaricdə təhsil Dövlət Proqramı ilə bağlı xərclərin həyata keçirilməsi üçün eyni məbləğin ayrılması nəzərdə tutulmuşdur.

Bütövlükdə, hələ xərclənməkdə olan 2011-ci il büdcəsini nəzərə almasaq, bu vaxtadək Dövlət Proqramının həyata keçirilməsi üçün 27.2 mln manat ayrılmış, bu məbləğdən 20 623 817 manat xərclənmişdir.

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alanların təhsillərinə Təhsil Nazirliyi tərəfindən ciddi nəzarət edilir. Belə ki, hər tədris ilinin sonunda tələbələr akademik göstəricilərini özündə əks etdirən sənədləri (transkriptlər) nazirliyə təqdim etməklə müvafiq hesabat verirlər. Həmin sənədlər nazirlikdə ciddi araşdırılır və akademik müvəffəqiyyətsizliklər aşkar edildiyi təqdirdə həmin tələbələrin təhsillərinin maliyyələşdirilməsi akademik göstəricilərdə yaranmış nöqsanlar aradan qaldırılana qədər






dayandırılır. Eyni zamanda, tələbələrlə yerlərdə də mütəmadi görüşlər, konfranslar, simpoziumlar, seminarlar təşkil olunur. Belə ki, 2010-2011-ci illərdə müxtəlif dövlət qurumlarının nümayəndələrindən ibarət heyətlər Fransa, Böyük Britaniya və Almaniyada təşkil etdikləri tədbirlərdə tələbələrin təhsili və məişət şəraitləri ilə yaxından tanış olmuş, yaranmış çətinliklərin aradan qaldırılması üçün təkliflər irəli sürmüşlər.

Bunlarla yanaşı, hər il yay tətili dövründə Təhsil Nazirliyində tələbələrin nazirliyin rəhbərliyi və aidiyyati nazirliklərin və qurumların nümayəndələrinin iştirakı ilə görüşü təşkil edilir. Bu görüşlərdə müvafiq qurumların rəhbər şəxsləri tələbələrin təklif və istəklərini dinləyir, sualları cavablandırırlar.



**Dövlət Proqramı çərçivəsində xarici ali məktəblərdən məzun olanların illər üzrə statistikası**

*Hazırda 300-dən artıq Proqram təqaüdçüsü məzun olmuşdur*




| | |
|---|---|
| Dövlət Proqramına daxil edilənlər | -1204 |
| Hazırda təhsil alanlar | -853 |
| Məzun olanlar | -322 |
| DP xaric olunanlar | -29 |

"Qara qızılın insan kapitalına çevrilməsi" məqsədilə həyata keçirilən Dövlət Proqramı artıq 2009-cu ildən etibarən öz bəhrələrini (məzunlarını - 300-ə yaxın) verməkdədir. Artıq qrafikimizdən göründüyü kimi Dövlət Proqramının icrasının 2-ci ilindən etibarın bu layihə çərçivəsində qara qızılın insan kapitalına çevrilməsi prosesi başlamış və növbəti illər üzrə arta-arta davam etmişdir.

Müvafiq tədbirlər planına əsasən Dövlət Proqramı çərçivəsində xaricdə təhsilini başa vurmuş gənclərimizin işlə təmin olunması məqsədilə Təhsil Nazirliyinin sədrliyi ilə bir neçə dövlət qurumlarının (Gənclər və İdman Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya) əməkdaşlarından təşkil olunmuş Komissiya "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramı" çərçivəsində məzun olmuş Azərbaycan Respublikası vətəndaşlarının işlə təmin olunması qaydaları" layihəsini hazırlanmış və rəy bildirilməsi məqsədilə müxtəlif dövlət qurumlarına göndərilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən edilmiş təkliflər nəzərə alınaraq layihənin ye-

kun mətni AR Nazirlər Kabinetinə təqdim edilmişdir. Layihənin bu günə qədər təsdiq olunmamasına baxmayaraq, Təhsil Nazirliyi mütəmadi olaraq məzunlar haqqında ətraflı məlumatlı siyahıları Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiyaya təqdim edir. Bu siyahılar əsasında Təhsil üzrə Komissiya lazımi məlumatları Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya və əlaqədar qurumlara göndərir. Eyni zamanda Təhsil Nazirliyi tərəfindən məzunlara müvafiq arayışlar da təqdim edilir.

Xaricdə Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazanan hər bir tələbə ilə Təhsil Nazirliyi arasında müqavilə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27.11.2008-ci il tarixli, 261 saylı qərarı ilə təsdiqlənmiş) imzalanır. Müqavilənin 2.3.11 bəndində xarici ali məktəbdə təhsil alan Dövlət Proqramı iştirakçısının məzun olduqdan sonrakı fəaliyyətinə dair məsələ "tədris müddəti bitdikdən sonra 2 ay ərzində Azərbaycan Respublikasına qayıtmaq və aldığı ixtisas üzrə Azərbaycan Respublikasında 5 (beş) il fasiləsiz işləmək" sözləri ilə ifadə olunmuşdur.

Məlumat üçün bildiririk ki, "Dövlət Qulluğu haqqında Əsasnamə"yə edilən dəyişiklikliyə uyğun olaraq Dövlət Proqramı çərçivəsində xarici ali məktəblərdən məzun olanlar müsabiqədən kənar dövlət qulluğuna qəbul olunurlar.

**Dövlət Proqramı məzunlarının ölkələr üzrə bölgüsü**
**Bu günədək 322 nəfər məzun olmuşdur:**



## Dövlət Proqramı məzunlarının ixtisaslar üzrə bölgüsü




Hazırda Dövlət Proqramı çərçivəsində məzun olanlarımızın əksəriyyəti Böyük Britaniya, Almaniya və Fransa ali məktəblərini bitirənlərdir. Ən az məzunlarımız isə Yaponiya, Cənubi Koreya və Yeni Zelandiya universitetlərindəndir. Lakin, əvvəliki qrafiklərimizdə illər üzrə göndərilənlərin statistikalarını nəzərə alsaq ən çox məzunumuz olan ölkələrin sıralarına yenilərinin əlavə olunacağı, bəzilərinin isə ən son sıralara belə düşəcəyi proqnozlaşdırılır. Proqramda rəqabəti ilə seçilən Türkiyə, Almaniya və Kanadanın gələcəkdə daha çox məzun verəcək ölkələr sırasında olacağını nümunə olaraq qeyd etmək olar.

Dövlət Proqramının ilk illərində göndərilən tələbələrimizin ixtisaslarının əksəriyətinin humanitar elmlər, iqtisadiyyat/idarəetmə və s. təşkil etməsi səbəbidən, hələ məzunların ixtisaslar üzrə bölgüsündə bu sahələr üstünlük təşkil edir. Lakin, son 2 ildə daha çox ehtiyac duyulan sahələr (tibb, turizm, İKT, mühəndislik və s.) üzrə gənclərimizin təhsil almağa göndərilməsi gələcəkdə məzunların ixtisaslar üzrə bölgüsündə ciddi dəyişikliklərə gətirəcəkdir.

Bu gün artıq həyata keçirilən “qara qızılın insan kapitalına çevrilməsi siyasətinin bəhrəsi olan 300-dən artıq məzunun müəyyən hissəsi təhsilini növbəti səviyyədə davam etdirir, digərləri isə ölkəmizdə müxtəlif dövlət qurumlarında və özəl sektorda uğurla çalışmaqdadırlar.

Dövlət Proqramı məzunlarının işlə
təmin olunmasına dair bəzi məlumatlar:

| | |
|---|---|
| AR Dövlət Neft Fondu | 7 |
| "Ernst & Young" audit şirkəti | 6 |
| AR Xarici İşlər Nazirliyi | 4 |
| AR Mərkəzi Bankı | 4 |
| AR Prezidenti Administrasiyası | 4 |
| Azərenerji ASC | 4 |
| Azərbaycan Dillər Universiteti | 3 |
| Azərbaycan Diplomatiya Akademiyası | 3 |
| British Petroleum | 3 |
| AFFA | 2 |
| AR Ədliyyə Nazirliyi | 2 |
| AR Prezidenti yanında Strateji Tədqiqatlar Mərkəzi | 2 |
| AR Vergilər Nazirliyi | 2 |
| BMT Bakı ofisi (Yoxsullarla iş layihəsi) | 2 |
| Caspian Khazri Şirkəti | 2 |
| Finca Azərbaycan | 2 |
| Gilan Holding | 2 |
| Nar Mobile | 2 |
| Oxygen klinikası | 2 |
| Turan Bank | 2 |
| "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 1 |
| "Rols Royse" MMC | 1 |
| "Starbag Azerbaijan" LLC | 1 |
| "UGAN" MMC | 1 |
| ABŞ- Dünya Bankının Mərkəzi ofisi | 1 |
| ABT qeyri hökumət təşkilatı | 1 |
| AR Diaspora Komitəsi | 1 |
| AR Dövlət Neft Şirkəti | 1 |
| AR İqtisadi İnkişaf Nazirliyi | 1 |
| AR Müdafiə Nazirliyi | 1 |

| | |
|---|---|
| AR Nazirlər Kabineti | 1 |
| AR Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 1 |
| Azerbaijan Colsulting Company | 1 |
| Azercell Telekom | 1 |
| Azərbaycan Dövlət İqtisad Universiteti | 1 |
| Azərbaycan Tibb Universiteti | 1 |
| Azərbaycan Turizm Assosasiyası | 1 |
| AzMeCo QSC | 1 |
| Bakı Ticarət Bankı | 1 |
| Beynəlxalq Bank | 1 |
| Colsis Şirkət-tərcüməçi | 1 |
| Dəmir Bank | 1 |
| Dobromed Hospital | 1 |
| EDRS MMC | 1 |
| Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsü (İDEA) | 1 |
| GRBS, Davamlı İnkişaf və layihələndirmə koordinatoru | 1 |
| Xalq Bank | 1 |
| İpoteka Fondu | 1 |
| İtaliya Ticarət Palatası | 1 |
| Kaspi-Xəzər Xaricdə təhsil şirkəti | 1 |
| Qafqaz Lizinq Şirkəti | 1 |
| Qaya Daşınmaz Əmlak | 1 |
| Qərb Universiteti | 1 |
| Milli Aviasiya Akademiyası | 1 |
| Milli Onkologiya Mərkəzi | 1 |
| Müstəqil işçi | 1 |
| Paşa Holding | 1 |
| Standard Bank | 1 |
| Yeni Zelandiya Essentials trading LTD | 1 |

Dövlət Proqramı məzunlarının dövlət və qeyri-dövlət sektorlarında çalışma faizi




O da qeyd olunmalıdır ki, Dövlət Proqramının iştirakçılarının bir qismi təhsilin müvafiq səviyyəsindən məzun olduqdan sonra növbəti səviyyədə təhsillərini davam etdirirlər. Bu qayda xüsusi istedada malik olan və respublikamız üçün xüsusi əhəmiyyət kəsb edən ixtisaslarda təhsil alanlara Təhsil üzrə Komissiyanın qərarı əsasında şamil edilir. Digər bir qismi isə həqiqi hərbi xidmətə çağrılmışlar.

Eyni zamanda onu da qeyd etmək yerinə düşər ki, Dövlət Proqramının əsas hədəflərindən biri də məhz Azərbaycan ali məktəbləri üçün yeni akademik kadr potensialının hazırlanmasıdır. Belə ki, artıq məzunların müəyyən hissəsi dövlət və özəl sektorda işləməklə yanaşı, ali məktəblərimizin (ADU, Qərb Uni., ADA və s.) təlim-tədris prosesində də fəal iştirak edir, xarici ali məktəblərdə öyrəndiyi praktikaların birbaşa tətbiqini həyata keçirirlər.

Bu gün Azərbaycanda neft kapitalının insan kapitalına çevirilməsi siyasəti cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və bu siyasət davam etdiriləcəkdir. Tək təhsildə deyil, iqtisadiyyatın bütün sahələrində, tikintidə, əhalinin sosial rifahının yaxşılaşdırılmasında, mədəniyyətimizin təbliğində və s. sahələrdə neft kapitalının müsbət mənada təsirini açıq aydın şəkildə görmək mümkündür və bu siyasət ulu öndərin əsasını qoyduğu Azərbaycanın neft strategiyasının uğurlarıdır.

*"Əslində mən bizim universitetdə bu qədər azərbaycanlı tələbənin təhsil alacağını bilmirdim və rəqəmləri görəndə təəccübləndim. Ancaq, bu çox yaxşı göstəricidir. Azərbaycan hökuməti gənclərə yatırım etməklə çox uğurlu bir gələcəyə imza atıb. Bu cür parlaq gənclərin bizim universitetdə təhsil alması da çox sevindirici haldır".*



***Kanada Vaterlo Universitetinin prezidenti***

***cənab Feridun Hamdullahpur***

*"Azərbaycanlı tələbələr bu gün ölkələrinin mədəniyyətini yüksək səviyyədə təbliğ edirlər".*



***İsveçrə Qlion İnstitutunun Tələbə mübadiləsi bölməsinin meneceri***

***cənab Mark Qordon***



*"Azərbaycan Hökumətinin gənclərin xaricdə təhsili üzrə Təqaüd Proqramı Azərbaycan akademik mühitinin gələcək nailiyyətləri və ümumilikdə ölkənin dayanıqlı inkişafı üçün real töhvədir. Bu addım gələcəyə investisiyanın ən yaxşı nümunəsidir".*

***cənab Steven van de Valle***

***Niderland Krallığı Erasmur Rotterdam Universitetinin professoru***



*"Dövlət Təqaüd Proqramı çərçivəsində Alberta Universitetində təhsil alan azərbaycanlı tələbələr istər universitetimizdə, istərsə də cəmiyyətdə özlərini əla tələbə və ölkələrinin effektiv səfirləri kimi sübut etmişdirlər. Biz azərbaycanlı tələbələrin sayının artmasında maraqlıyıq və inanırıq ki, bu tələbələr Azərbaycan və Kanada əlaqələrinin inkişafında xüsusi rol oynacaqlar".*

***cənab Dan Fredrik***

***Kanada Alberta Universiteti Təqaüd alan tələbələrlə iş proqramının meneceri***

*2011-ci ildə qardaş Türkiyədə kifayət qədər çətin və mürəkkəb hesab olunan TUS (tibdə uzmanlıq imtahanı) imtahanında əcnəbi tələbələr içərisində ən yüksək bal toplayaraq TUS birincisi olmuşdur.*



***Türkiyə TUS***

***Məhəmməd Qafarov***

*Yüksək naticələrdən danışanda Türkiyənin İstanbul Texniki Universitetinin tarixində bu ali məktəbi ən yüksək naticə ilə bitirmiş, hazırda isə dövlət proqramı çərçivəsində ABŞ-ın Corciya Texnologiya Universitetində oxuyan Teymur Sadıxovun adını qeyd etməmək ədalətsizlik olardı. T.Sadıxov ötən tədris ilini yenə də 4 ballıq sistem üzərində 4 balla başa vuraraq uğurlarını Azərbaycan adına şərəflə davam etdirməkdədir.*



***ABŞ Corciya Texnologiya Universiteti***

***Teymur Sadıxov***